GÜNÜN SİYASİ NƏBZİ










# Zəngəzur dəhlizi:

# İnteqrasiyanın və strateji dayanıqlılığın təkanverici gücü



*Müasir dövrdə qloballaşma proseslərinin dərinləşməsi və beynəlxalq ticarət sistemlərinin daha sıx qarşılıqlı asılılığa söykənməsi nəqliyyat-kommunikasiya infrastrukturunu yalnız iqtisadi deyil, eyni zamanda geosiyasi təhlükəsizlik və diplomatik əməkdaşlıq kontekstində strateji prioritetə çevirir. Bu reallıq fonunda Zəngəzur dəhlizi layihəsi qlobal geoiqtisadi sistemdə özünəməxsus yer tutur. İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni geosiyasi konfiqurasiya Azərbaycanın strateji təşəbbüslərinə real əsaslar qazandırdı. Məhz bu yeni tarixi şəraitdə Zəngəzur dəhlizi ideyası yenidən formalaşdı və bu təşəbbüsün icrası artıq rəsmi Bakı və Ankara ilə yanaşı, bütövlükdə Cənubi Qafqaz və onun ətrafında yerləşən geniş bir geocoğrafi zonanın - Mərkəzi Asiya, Yaxın Şərq və Avropa arasında iqtisadi əlaqələrin transformasiyası baxımından açar rol oynayır.*




Zəngəzur dəhlizi layihəsi Azərbaycan üçün nəqliyyat infrastrukturunun inkişafı, ölkənin əsas ərazisi ilə Naxçıvan Muxtar Respublikası arasında fiziki bağlantının təmin olunması nöqteyi-nəzərindən də fundamental əhəmiyyət daşıyır. Bu dəhlizin açılması həm də Türk dünyasının vahid logistik sistemə inteqrasiyası üçün yeni imkanlar yaradacaq, Mərkəzi Asiya ölkələrinin Avropa bazarlarına daha çevik və təhlükəsiz çıxışını təmin etməklə onların Rusiya və İran kimi alternativ marşrutlardan asılılığını azaldacaq. Bununla yanaşı, Zəngəzur dəhlizinin regional sabitlik və təhlükəsizliyə töhfəsi xüsusi vurğulanmalıdır. Siyasi dialoqun və iqtisadi əməkdaşlığın intensivləşməsi qarşılıqlı etimadı artırır və mövcud gərginliklərin yumşalmasına xidmət edir. Bu kontekstdə dəhliz hökumətlər səviyyəsində, parlamentlərarası münasibətlərdə, elmi ictimaiyyətin, ekspertlərin və media institutlarının da müzakirə predmeti olmalıdır. Onun uğurla reallaşması həm də ictimai-siyasi konsensus tələb edir.

Zəngəzur dəhlizi təkcə Azərbaycanın və onun strateji tərəfdaşı Türkiyənin maraqları çərçivəsində qiymətləndirilməməlidir. Çünki bu layihə Ermənistan üçün də uzunmüddətli sabitlik və iqtisadi dirçəliş vəd edir. Əgər Ermənistan rəhbərliyi yaranmış reallıqları soyuqqanlı şəkildə analiz edə və regionda dəyişən güc balansını adekvat qiymətləndirə bilsə, Zəngəzur dəhlizinə konstruktiv yanaşma nümayiş etdirməklə geosiyasi təcriddən çıxmaq və nəqliyyat-logistika axınlarının fəal iştirakçısına çevrilmək şansı qazanacaq. Dəhliz vasitəsilə Ermənistanın beynəlxalq enerji və ticarət marşrutlarına inteqrasiya olunması, həm iqtisadi diversifikasiya, həm də sosial sabitlik üçün yeni perspektivlər mümkündür. Tarix göstərir ki, irimiqyaslı nəqliyyat-kommunikasiya layihələri münaqişə risklərini azaltmaqla yanaşı, dövlətlər arasında qarşılıqlı asılılığı da dərinləşdirir. Bu isə öz növbəsində, qarşılıqlı maraqlar əsasında dialoq mühitinin güclənməsinə və uzunmüddətli sülhün formalaşmasına şərait yaradır. Zəngəzur dəhlizi bu baxımdan strateji vasitədir. Bu layihə regionda qarşıdurmanı əməkdaşlığa, təcridi inteqrasiyaya, qeyri-sabitliyi isə inkişaf dinamikasına çevirmək potensialına malikdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ardıcıl və qətiyyətli siyasəti nəticəsində Cənubi Qafqazda uzun illərdən sonra ilk dəfə olaraq konkret reallıqlar üzərində formalaşan yeni geosiyasi düzən yaranıb. Bu reallıq faktiki vəziyyətlə və beynəlxalq hüququn əsas prinsipləri ilə uzlaşır. Hazırda qarşıda duran əsas vəzifə bu reallıqlar əsasında qarşılıqlı etimadın qurulması və əməkdaşlıq çərçivələrinin genişləndirilməsidir. Bu mənada Zəngəzur dəhlizi regionun transformasiyası baxımından açar rolu oynayır. Dəhliz Azərbaycanın milli maraqlarını təmin etməklə yanaşı, bütün Cənubi Qafqaz regionunda dinc birgəyaşayış, iqtisadi inklüzivlik və təhlükəsizlik arxitekturasının qurulmasına xidmət edən strateji layihədir.

Zəngəzur bölgəsinin siyasi hüquqi statusu ətrafında aparılan mübahisələr yalnız bu günün regional maraqları ilə deyil, eyni zamanda XX əsrin əvvəllərində formalaşmış beynəlxalq hüquqi sənədlər və siyasi bəyanatlarla da birbaşa əlaqəlidir. Tarixi mənbələr və sənədlər göstərir ki, Zəngəzur bölgəsi beynəlxalq səviyyədə Azərbaycanın ərazisi kimi tanınmış və bu status müxtəlif dövlətlərarası platformalarda dəfələrlə təsdiqlənmişdir. 1919-cu il noyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri Nəsib bəy Yusifbəylinin Antanta nümayəndəsinə ünvanladığı bəyanat bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Bəyanatda baş nazir açıq şəkildə vurğulayırdı ki, Zəngəzur Azərbaycanın ayrılmaz tərkib hissəsidir və bu mövqe Antanta komandanlığı və ABŞ nümayəndəsi general Haskel kimi beynəlxalq aktorlar tərəfindən də qəbul edilmiş hüquqi və siyasi reallıqdır. O dövrün beynəlxalq gücləri ilə aparılan danışıqlarda Azərbaycanın suverenlik iddialarının legitimliyini təsdiqləyən sənədli sübutdur. Beləliklə, Zəngəzur məsələsinin hüquqi əsasları tarixi yaddaşla yanaşı, həm də beynəlxalq razılaşmalarla təsbit olunmuşdur. Digər mühüm tarixi fakt ondan ibarətdir ki, Nəsib bəy Ermənistanın o dövrdə beynəlxalq öhdəliklərə əməl etmədiyini, Zəngəzura hərbi müdaxilə ilə bölgədə gərginlik yaratdığını bildirirdi. Bu kontekst Ermənistanın bölgədə status-kvonu birtərəfli şəkildə dəyişdirməyə yönəlmiş cəhdlərinin artıq 1918-1920-ci illərdə başlandığını və nəticədə Zəngəzurda kütləvi əhali köçləri, xüsusilə də 60 minə yaxın müsəlman əhalinin öz doğma torpaqlarından didərgin düşdüyünü göstərir. Hadisə sonrakı onilliklərdə Cənubi Qafqazda formalaşan etnik və demoqrafik strukturun təməl dəyişikliklərinə səbəb olub. Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri, nüfuzlu diplomat Əlimərdan bəy Topçubaşovun da arxivlərdə yer alan fikirləri bu mövzuda tarixi konseptual yanaşmanı tamamlamağa yardım edir. O, 1918-ci ildə İstanbulda Osmanlı rəsmilərinə ünvanladığı çıxışında erməni iddialarının əsl mahiyyətini ifşa edərək məsələni yalnız bir neçə kəndin deyil, bütöv dörd qəzanın - Şuşa, Cəbrayıl, Cavanşir və Zəngəzurun taleyi ilə bağlayırdı. Topçubaşovun vurğuladığı kimi, ermənilərin bu bölgələrdə "yerli əhali" statusu sonradan imperiyalar tərəfindən məqsədli şəkildə həyata keçirilmiş köçürmə siyasəti nəticəsində formalaşdırılmışdır. Zəngəzurun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mövqeləndirilməsi hüquqi və tarixi əsaslara söykənən reallıqdır. Bugünkü Zəngəzur dəhlizi ilə bağlı müzakirələr və onun ətrafında baş verən geosiyasi proseslər yalnız nəqliyyat və iqtisadi maraqlarla izah oluna bilməz, bu, həm də tarixi ədalətin bərpası və beynəlxalq hüququn əsas prinsiplərinin yenidən aktuallaşdırılmasıdır.

1920-ci il noyabrın 16-da bolşevik rəhbərlərindən İosif Stalinin Vladiqafqazdan Vladimir Leninə göndərdiyi məxfi teleqram bu planın əsas ideoloji və strateji mahiyyətini açıq şəkildə ortaya qoyur. Teleqramda Stalin qeyd edirdi ki, Ermənistanın sovetləşdirilməsi zəruridir və bu proses Türkiyə ilə Azərbaycanın birbaşa əlaqəsini kəsməyə xidmət etməlidir. Bu, gələcəkdə bölgədə süni sərhədlərin formalaşdırılmasına, etnik və strateji izolyasiyanın qurulmasına yönəlmiş məqsədli planın əsas struktur komponenti idi. Stalin bölgədə üçtərəfli təhlükəni - cənubdan Böyük Britaniyanın maraqlarını, qərbdən Türkiyənin yüksələn nüfuzunu, şimaldan isə Gürcüstanın müstəqillik iddialarını qeyd edərək onların qarşısını almağın yeganə yolunun Ermənistanın geosiyasi bastiona müdafiə qabiliyyətinin artırılmasında gördüyünü bildirirdi. Bu yanaşma, əslində, Zəngəzurun süni şəkildə Ermənistanın nəzarətinə verilməsinin ideoloji əsasını və imperiyanın təhlükəsizlik perimetri qurmaq niyyətini açıq şəkildə ortaya qoyurdu. Sovet imperiyası bu planı ardıcıl şəkildə həyata keçirdi və nəticədə Zəngəzur bölgəsi Azərbaycanın əsas ərazisi ilə Naxçıvan arasında coğrafi bağlantını kəsən siyasi bir baryerə çevrildi. Bu addım həm də pantürk birliyinin coğrafi dərinliklərini parçalamağa yönəlmiş geostrateji manevr idi. Həmin dövrün erməni mətbuatı da bu vəziyyəti gizlətmirdi. "Aşxatavor" qəzetində dərc olunmuş yazılarda açıq şəkildə bildirilirdi ki, Moskvanın təşəbbüsü ilə bu qərar qəbul edilib, Azərbaycanın zəifləmiş vəziyyətindən istifadə olunub və nəticədə bu dəyişiklik ermənilərin maraqlarına uyğun olaraq reallaşdırılıb.

Azərbaycan 44 günlük Vətən müharibəsində Qarabağ və Şərqi Zəngəzuru işğaldan azad edib. Prezident İlham Əliyev bu il yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibədə bu ərazilərin gələcək inkişafı ilə bağlı strateji yanaşma ortaya qoyub: "Həm Qarabağ, həm Şərqi Zəngəzur və eyni zamanda Naxçıvan Muxtar Respublikası vahid bir böyük məkana çevrilməlidir". Bununla yanaşı, dövlət başçısının Qərbi Azərbaycana qayıdışla bağlı verdiyi bəyanatlar, prosesin ərazi-hüquqi məsələ kimi dövlətin strateji gündəmində olduğunu sübut edir. Qayıdış konsepsiyası, beynəlxalq hüquqa əsaslanan və regionda demoqrafik ədalətin təmin olunmasına yönələn siyasi proqram kimi dəyərləndirilməlidir.

Xatırladaq ki, 2020-ci il 10 noyabr tarixində imzalanmış üçtərəfli Bəyanat hərbi əməliyyatların dayandırılmasını və bölgədə yeni təhlükəsizlik konfiqurasiyasının formalaşdırılmasını nəzərdə tutmaqla həm də Cənubi Qafqazda kommunikasiya bağlantılarının bərpasını və regionun iqtisadi inteqrasiyasını ehtiva edir. Sənədə əsasən Ermənistan Azərbaycanla Naxçıvan arasında nəqliyyat əlaqəsinin təmin olunmasına razılıq verdi. Praktik baxımdan bu razılaşma Zəngəzur dəhlizinin reallaşmasına siyasi zəmin yaradır. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, Zəngəzur dəhlizi təkcə Azərbaycan deyil, region və daha geniş mənada Avrasiya üçün strateji əhəmiyyət daşıyır. Layihə Çin ilə Avropa arasında uzanan Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutunun ayrılmaz komponentinə çevrilmək potensialına malikdir. Hazırda Çin məhsullarının Avropaya çatdırılması üçün istifadə edilən Süveyş kanalı marşrutu təqribən 20 min kilometrdir və proses orta hesabla 30-35 gün çəkir. Halbuki Zəngəzur dəhlizi ilə bu məsafə 7 min kilometrə, tranzit müddəti isə 12 günə qədər enə bilər. Bu isə zaman, maliyyə, enerji sərfiyyatı və ətraf mühitə təsir baxımından daha optimal alternatividir. Zəngəzur dəhlizinin illik yükdaşıma tutumu 35 milyon tona qədər proqnozlaşdırılır. Bu, Azərbaycanın tranzit ölkə rolunu gücləndirməklə yanaşı, regionun logistik mərkəzə çevrilməsinə təkan verəcək. Naxçıvan Muxtar Respublikasının iqtisadi cəhətdən əsas ərazi ilə birləşməsi uzun illər davam etmiş izolyasiya vəziyyətinə son qoyaraq bölgənin tammiqyaslı iqtisadi və sosial inteqrasiyasını təmin edəcək. Yerli istehsal imkanlarının genişlənməsi, turizm sektorunun inkişafı, xarici investisiyaların cəlbi və ortaq infrastruktur layihələrinin reallaşması üçün zəmin yaranacaq.

Zəngəzur dəhlizi yalnız iqtisadi göstəricilərlə məhdudlaşmır. Bu layihə regionda sülh və sabitliyin qorunması baxımından da mühüm əhəmiyyət kəsb edir. Nəqliyyat-kommunikasiya xətlərinin bərpası və yeni bağlantıların yaradılması, iqtisadi maraqların üst-üstə düşməsi dövlətlərarası münasibətlərdə əməkdaşlığın formalaşmasına müsbət təsir edir. Beləliklə, Zəngəzur dəhlizi dinamik iqtisadi inkişafı təmin etməklə, həm də dayanıqlı sülh üçün körpü rolunu oynayır.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**